**office**

---

**От:** perviz memisov <perviz-memisov@mail.ru>
**Отправлено:** 10 августа 2026 г. 10:40
**Кому:** orkhan.babayev; sattar.mammadov; anar.baghirov; anar.asadov; farhad.najafov; ali.mirzayev@barassociation.az; ismayil.nasibov; nargiz.najafova; office@barassociation.az; adalatlf@gmail.com

Azərbaycan Vəkillər Kollegiyasının sədri
cənab Anar Bağırova

TƏŞƏKKÜR MƏKTUBU

Hörmətli cənab Anar müəllim,

Sizə bu məktubla Azərbaycan Vəkillər Kollegiyasının üzvləri olan "Ədalət" Vəkil Bürosunun vəkili Fərid Rzabəyliyə və Bakı şəhəri 3 saylı Vəkil Bürosunun vəkili Ofeliya Rəhimovaya göstərdikləri yüksək peşəkarlıq, prinsipiallıq, diqqət və hüquqi yardım üçün dərin təşəkkürümü bildirmək istəyirəm.

Media nümayəndəsi kimi fəaliyyətim çərçivəsində hüquqi məsələlərlə bağlı müraciət etdiyim zaman Fərid Rzabəyli və Ofeliya Rəhimova öz vəzifələrinə böyük məsuliyyətlə yanaşaraq, məsələnin hüquqi mahiyyətini diqqətlə araşdırmış, qanunvericiliyin tələblərini əsas götürərək mənə ətraflı hüquqi izahat və peşəkar məsləhətlər vermişlər.

Xüsusilə qeyd etmək istəyirəm ki, hər iki vəkilin fəaliyyətində qanunun aliliyinə, vətəndaşların hüquq və azadlıqlarının müdafiəsinə, vəkil peşəsinin etik prinsiplərinə və ədalət mühakiməsinin həyata keçirilməsinə töhfə vermək kimi yüksək peşə dəyərlərinə sadiqliyini müşahidə etmişəm.

Fərid Rzabəylinin hüquqi məsələlərə yanaşmasında peşəkarlıq, prinsipiallıq və operativlik, Ofeliya Rəhimovanın fəaliyyətində isə diqqət, məsuliyyət və insan hüquqlarına həssas münasibət xüsusi qeyd olunmağa layiqdir.

Hesab edirəm ki, belə peşəkar və vicdanlı hüquqşünasların fəaliyyəti yalnız konkret şəxslərin hüquqlarının müdafiəsinə deyil, bütövlükdə cəmiyyətdə hüquqa və ədalətə olan inamın möhkəmlənməsinə xidmət edir.

Bu baxımdan, Azərbaycan Vəkillər Kollegiyasının rəhbərliyi olaraq, belə vəkillərin fəaliyyətinə verdiyiniz dəstəyə və ölkəmizdə vəkillik institutunun inkişafına göstərdiyiniz diqqətə görə Sizə də təşəkkürümü bildirirəm.

Xahiş edirəm, Fərid Rzabəyliyə və Ofeliya Rəhimovaya mənim səmimi minnətdarlığımı çatdırasınız.

Sizə və rəhbərlik etdiyiniz Azərbaycan Vəkillər Kollegiyasının kollektivinə gələcək fəaliyyətinizdə uğurlar arzulayıram.

Hörmətlə,

Pərviz Məmişov
Jurnalist

"XeberEkspress" İnformasiya Agentliyinin Baş direktorunun müşaviri.

Əlaqə: (+994 51) 845-46-45

Vəkillər Kollegiyasının
Rəyasət Heyəti
Daxil olma № 3411
«10» 08 2026